# 2013-cü ilin birinci yarısı– uğurlar, perspektivlər

(Əvvəli 3-cü səhifədə).

Səfər zamanı dövlət başçısı bir çox sosial və iqtisadi xarakterli obyektlərin açılışında iştirak etmiş, inşaası davam edən tikintilərdə işlərin gedişi ilə tanış olmuşdur. Görülmüş işlər barədə fikirlərini bildirməklə bərabər, cənab Prezident qarşımıza yeni-yeni vəzifələr qoymuşdur.

Rayon ictimaiyyətinin nümayəndələri ilə keçirilən görüşdə dövlət başçısı demişdir: "Bu gün Qəbələ ölkəmizin mədəniyyət və turizm mərkəzlərindən birinə çevrilmişdir. Bakıdan, digər yerlərdən, digər şəhərlərdən, başqa ölkələrdən buraya gələnlərin sayı getdikcə artır. Turizmin inkişafı gələcəkdə yəqin ki, Qəbələ rayonunun iqtisadi inkişafının müəyyən faizini öz üzərinə götürəcəkdir".

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rayonumuz haqqında söylədiyi bu qürurverici fikirlər hər bir qəbələlidə fərəh hissi yaradır, qurub-yaratmaq əzmini daha da artırır.

Qəbələnin ictimai həyatında baş verən əsas əlamətdar hadisələrdən biri də Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət mərkəzi elan olunmasıdır.

Ötən müddət ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 126.519 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 3.247 min manat, yaxud 1 faiz çox olmuşdur.

Cari ilin birinci yarısında keçən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışı sənayedə 150 min manat, kənd təsərrüfatında 2.271 min manat, tikintidə 457 min manat, nəqliyyatda 84 min manat, rabitədə 37 min manat, ticarətdə isə 4.248 min manat artmışdır.

Bu dövrdə adambaşına düşən ümumi məhsul buraxılışı 1.278 manat təşkil etmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 23 manat çox olmuşdur.

Sənaye mallarının istehsalında və xidmətlərin göstərilməsində qeyri-dövlət bölməsinin xüsusi çəkisi 71,4 faiz təşkil etmişdir.

Yarım il ərzində sənaye müəssisələrində çalışan 741 nəfər işçinin orta aylıq nominal əmək haqqı 363 manat təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 19,6 faiz çox deməkdir.

2003-cü ilin oktyabr ayından 1 iyul 2013-cü ilədək 11.373 yeni iş yeri açılmışdır, ondan 9.325-i daimi iş yeridir. 6 ayda açılmış yeni iş yerlərinin sayı isə 430-a bərabərdir.

Əsas kapitala yönəlmiş investisiyanın həcmi 81.952 min manat, tikinti quraşdırma işlərinin həcmi isə 68.559 min manat təşkil etmişdir. Əvvəlki illə müqayisədə əsas kapitala yönəlmiş investisiyanın həcmi 457 min manat artmışdır.



Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Yarım il ərzində bütün növ istehlakçı qruplar tərəfindən 40.347,4 min kilovatt/saat elektrik enerjisi istehlak edilmiş, 2.420,8 min manata qarşı 2.047,1 min manat vəsait toplanaraq yığım planı 84,6 faiz yerinə yetirilmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 18.795,8 min kub/metr təbii qaz istehlak edilmiş, istehlak edilmiş, 1.879,6 min manata qarşı 1.826,1 min manat vəsait toplanaraq ümumi yığım məbləği 97,2 faiz təşkil etmişdir. Azərbaycan hökuməti və Dünya bankının maliyyə dəstəyi əsasında Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması istiqamətində 1-ci mərhələ üzrə işlər davam etdirilmiş, 2-ci mərhələ üzrə tikinti işlərinə başlanmışdır. Sahil küçəsində plastik borularla 2.500 paqonmetr kanalizasiya xətti çəkilmiş, 2 ədəd subartezian quyusu qazılmışdır. "Qaraçay", "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin küçələrində aparılan abadlıq işləri ilə əlaqədar mövcud su təchizatı və kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Yarım il ərzində 103,5 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 90,1 faizi abonentlərdən yığılmışdır.

Qəbələ Telekommunikasiya Qovşağı yarım il ərzində 485 min manat tarif gəliri proqnozuna qarşı 489,1 min manat gəlir əldə etmiş, proqnoz tapşırığına 100,8 faiz əməl olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz, yəni 44,1 min manat artıq gəlir əldə edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ filialı 2013-cü ilin birinci yarısında 90,9 min manata qarşı 91,5 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığını 101 faiz yerinə yetirmişdir. Dünya Bankının krediti hesabına həyata keçirilən "Maliyyə xidmətlərinin İnkişafı Layihəsi" çərçivəsində struktur islahatları aparılmış, poçt filialının və poçt şöbələrinin avtomatlaşdırılması prosesi həyata keçirilmişdir. Məlikli, Zalam, Yenikənd, Quşlar, Bunud və Bayramkoxalı kənd poçt şöbələri üçün yeni binaların tikilib istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsi tərəfindən 2013-cü ilin birinci yarısının yekununa görə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 2.675,7 min manata qarşı 2.396,7 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, yarımillik proqnoza 89,6 faiz əməl olunmuşdur.

Qəbələ rayon Məşğulluq Mərkəzində yarım il ərzində işsiz və işaxtaran kimi 335 nəfər vətəndaş qeydiyata alınmış, onların 12 nəfərinə işsizlik statusu verilmişdir. Qeydiyyatdan keçmiş 335 nəfərdən 130 nəfəri münasib işlə təmin edilmiş, 15 nəfərə işsizlik müavinəti ödənilmişdir.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 233 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 488 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 143 kub/metr qabion bəndi vurulmuş, 2.823 kubmetr daş beton bəndi cari təmir edilmişdir.

2013-cü ilin ikinci rübündə Qəbələ şəhərində Kanat yolu, «Tufandağ» dağ-xizək yay-qış istirahət kompleksi, "Karvansaray" otellər kompleksi, 1200 yerlik "Konqres Holl", "Stend atıcılığı kompleksi", Ağdaş-Qəbələ avtomobil yolunun (22 kilometr) yenidən qurulması layihəsi, Ağdaş-Qəbələ avtomobil yolunun (22 kilometr) abadlaşdırılması, işıqlandırılması və kommunikasiyaların köçürülməsi layihəsi, Kiçik Pirəli kənd 180 şagird yerlik tam orta məktəbin binası, Qəbələ-Küsnət-Laza avtomobil yolu, Qəbələ-Oğuz avtomobil yolu (20.5 kilometr), Futbol Akademiyası və stadionlar kompleksi, Qəbələ-2 yanğınsöndürmə deposu, Daxili İşlər Nazirliyinin N saylı alayı, Dəmiraparançay ərazisində sahilbərkitmə işləri, Cipsi zavodu və Şərab zavodu obyektlərində tikinti quraşdırma işləri davam etdirilmişdir.

Ötən 6 ay ərzində Qəbələ RİH tərəfindən Qəbələ şəhərinin H. Aslanov, Sahil, Musabəyov və Gənclər küçələrində, Bum və Nic qəsəbələrinin mərkəzi küçələrində abadlıq işləri aparılmış və hazırda bu istiqamətdə görülən işlər davam etdirilir. İkinci rüb ərzində Qəbələ şəhərində inşa ediləcək "Akvapark" və Qolf meydançası obyektlərinin tikintisinə hazırlıq işləri həyata keçirilmişdir.

Hesabat dövründə Qəbələ şəhərində 360 şagird yerlik, Zirik kəndində 220 şagird yerlik, Yengicə kəndində 80 şagird yerlik məktəb binalarının tikintisi üçün layihə-smeta sənədləri hazırlanmışdır.

2013-cü ilin birinci yarısı təhsil ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində də uğurlu nəticələrlə səciyyələnmişdir.

2012-2013-cü dərs ili müvəffəqiyyətlə başa çatmış, müvəffəqiyyət faizi 99,8 faiz, keyfiyyət göstəricisi isə 59,9 faiz olmuşdur. İmtahana buraxılmış 1375 şagirddən 1374 nəfəri müvəffəq qiymət alaraq attestata yiyələnmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Bu gün iftixar hissi ilə qeyd etməliyik ki, Qəbələ artıq respublikada deyil, dünyada mühüm turizm mərkəzi kimi tanınmaqdadır. Rayonda dünya standartlarına cavab verən beşulduzlu otellər, unikal istirahət mərkəzləri, mehmanxanalar Qəbələyə turizm axınını gündən-günə artırır. Rayonun kurort və sanatoriya məqsədləri üçün istifadə edilə bilən təbii potensialı böyükdür. Füsunkar təbiət, çoxsaylı qiymətli tarixi abidələr, bir-birini əvəz edən təkrarsız ecazkar mənzərələr, zəngin meşə örtüyü, mineral və qeyri-mineral bulaqlar, heyrətamiz dağ çayları dünyanın müxtəlif yerlərindən gələn turistlərdə zəngin təəssürat yaradır. Rayona turizm axınının yüksəlməsi yerli əhalinin rifah halının yüksəlməsinə xidmət edir.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, Yuneskonun və İseskonun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə son illər bir sıra beynəlxalq tədbirlərin, xüsusən hər il Beynəlxalq Musiqi Festivallarının Qəbələdə keçirilməsi, belə mötəbər tədbirlərə Qəbələnin ev sahibliyi etməsi hər birimizdə böyük məmnunluq və minnətdarlıq hissi doğurur. Belə tədbirlər Qəbələnin dünya miqyasında şöhrətinin yüksəlməsinə xidmət edir.

(Ardı 5-ci səhifədə).